

# Həqiqət carçısı

Artıq neçə illərdir ki, rayonumuzda "Kürmük nəğmələri" ədəbi birliyi fəaliyyət göstərir. Birlik üzvlərinin hər birinin yeni kitabı rayon ictimaiyyəti, poeziya həvəskarları tərəfindən sevinclə qarşılanır. Mərkəzi kitabxananın oxu zalı belə sevincli günlərin çox şahidi olub. Bu günlərdə dostları, tanışları və həmkarları Pərvanə Həşimovanın "Həqiqət içimin büllur nəfəsi" adlı ilk kitabının təqdimatı mərasiminə toplaşmışdı.

Qax

Qax rayon Tasmalı kənd orta məktəbin müəllimi Pərvanə xanımın istər bir pedaqoq, istərsə də bir ana kimi sevincli günləri çox olub. "İlin ən yaxşı pedaqoji mühazirəçisi", "İlin ən yaxşı müəllimi" müsabiqələrinin qalibi olarkən, oğlu Tehranın ali məktəbə qəbul xəbərini eşidərkən keçirdiyi fərəh hissini indi də unuda bilmir. Bununla belə təqdimat gününün sevincini də yüksək dəyərləndirir. Belə ki, Pərvanə müəllimə bu günə qədər öz daxili dünyasındakı duyğuları indi bu kitab vasitəsilə minlərlə insanla bölüşürdü.

Pərvanə xanımın yaradıcılığında vətən, torpaq mövzusu, ağrılı-acılı, sevincli-kədərli dünyamızın yaşantıları ön plana çəkilir.

Şair qarı düşmən tərəfindən talan olunmuş vətən torpaqlarının bir gün qayıdacağına ümid edir.

Tədbirdə Tasmalı kənd orta məktəbinin şagirdlərinin ifasında şairənin şeirləri söyləndi, kiçik səhnəciklər təqdim olundu.

"Kürmük nəğmələri " ədəbi birliyinin sədri A.Şahmir, Tasmalı kənd orta məktəbinin direktoru S.Abdullayev, Azərbaycan dili və ədəbiyyatı müəllimi Ə.Musayev, Tasmalı kənd icra nümayəndəsi M.Alagözov, təhsil şöbəsinin metodisti A.Məhərrəmova və RİH başçısının təhsil, səhiyyə və mədəniyyət işləri üzrə müavini Z.Xasıyeva çıxış edərək Pərvanə müəlliməyə ilə bağlı öz ürək sözlərini bildirdilər.

Tədbirdə Pərvanə xanımı bir şairə kimi qarşılayan tamaşaçılar onu bir bəstəçi kimi də kəşf etdilər.

Sonda şairə bu günü ona bəxş edən rayon ictimaiyyətinə, poeziya həvəskarlarına minnətdarlığını bildirdi və öz musiqi töhfəsini tədbir iştirakçılarına təqdim etdi.

Biz`də bu duyğulara qoşulur, üzümüzü Pərvanə xanıma tutaraq deyirik: "Həqiqət naminə yazan qələmin heç vaxt əlində titrəməsin!"

● **Ahidə ƏFƏNDİYEVA,**
***Qax rayon MKS-nin direktor müavini***